# “Qılınc və qələm” özbək dilində

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti ilə birgə görkəmli Azərbaycan yazıçısı Məmməd Səid Ordubadinin “Qılınc və qələm” romanının özbək dilində nəşrinin təqdimatını keçirib.**



Tədbiri universitetin Özbək dili və ədəbiyyatı fakültəsinin dekanı, dosent Firuza Barxanova açaraq “Qılınc və qələm” romanının özbək dilində tərcüməsi və nəşrinin ədəbiyyatşünaslıq üçün böyük bir hadisə olduğunu qeyd edib.

AMM-nin əməkdaşı Kərimulla Məmmədzadə iki ölkə arasında ədəbi-mədəni əlaqələrdən söz açaraq Mədəniyyət Mərkəzi tərəfindən Azərbaycan yazıçılarının müxtəlif mövzularda əsərlərinin tərcümə və çapının həyata keçirildiyini qeyd edib.

Universitetin professoru Qurdoş Qahramanov zəngin tarixi keçmişə malik olan Azərbaycan ədəbiyyatının özbək ədəbiyyatşünaslığında öyrənilməsi sahəsində aparılan işlərdən danışıb, gənc ədəbiyyatşünasların bu sahəyə xüsusi diqqət yetirmələrinin vacibliyini qeyd edib. “Qılınc və qələm” romanının Özbəkistanın kitabxanalarına, ali təhsil ocaqlarına əvəzsiz olaraq verilməsi nəzərdə tutulub.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

Xalq qəzeti .- 2024.- 26 aprel, № 84.- S.10.